www.stemolympiad.org
info@stemolympiad.org

# BEYNƏLXALQ STEM OLİMPİADASI ONLAYN İMTAHAN ŞƏRTLƏRİ VƏ QAYDALARI

1. Bütün kateqoriyalar üzrə imtahan müddəti 25 sual üçün 60 dəqiqə təşkil edir.
2. STEM Olimpiadasının nəzarətçiləri iştirakçıları kamera proqramı vasitəsilə onlayn şəkildə izləyəcəklər. İmtahan ərzində qayda pozuntuları qeyd ediləcək və imtahandan sonra qiymətləndiriləcəkdir.
3. Kamera və ekran paylaşımı imtahan boyunca aktiv olmalıdır. Kamera və ekran görüntüləri imtahan ərzində qeydə alınacaq. Aktiv kamera olmadan imtahana davam etmək nəticə və sıralamanıza təsir göstərə bilər.
4. Kamera bağlantısı ilə bağlı problem yaranarsa, sualları cavablandırmağa davam etmək tövsiyə olunur. Lakin bu hal sizin nəticənizə mənfi təsir edə bilər.
5. İmtahan müddəti və qalan vaxt imtahan ekranında göstəriləcək.
6. Eyni xal toplanacağı halda, imtahanı daha tez tamamlayan iştirakçı üstünlük əldə edəcək.
7. NEXT (SONRAKI) və PREV (ƏVVƏLKİ) düymələrindən istifadə edərək istədiyiniz sualı görə və cavablandıra bilərsiniz.
8. Hər bir sualın 4 mümkün cavabı mövcuddur. Sualların aşağısında yerləşən A, B, C, D düymələrindən istifadə edərək sualları cavablandıra bilərsiniz.
9. Cavablandırılan suallar və seçdiyiniz variant ekranda, sualın nömrəsinin yanında görünəcək. Cavablandırılmamış suallara qayıtmaq üçün həmin cədvəldə müvafiq sual nömrəsini sıxmağınız kifayətdir.
10. Hər düzgün cavab 4 bal qazandırır, hər səhv cavab isə ümumi nəticədən 1 bal çıxır.
11. Cavablandırılmamış suallar ümumi balınıza təsir etmir və bal azaltmır.
12. İmtahan zamanı riyazi əməliyyatlar üçün ağıllı telefon, kalkulyator və ya hər hansı digər elektronik cihazdan istifadə etmək qəti qadağandır.
13. Şagirdlər hesablama üçün boş kağız və qələmdən istifadə edə bilərlər.
14. **"SUBMIT EXAM"** (İMTAHANI BİTİR) düyməsini seçdikdən sonra imtahan yenidən başladıla bilməz.
15. İmtahan pəncərəsi təsadüfən bağlanarsa, sistemə yenidən daxil olub imtahana davam etmək olar. Bu zaman seçilmiş cavablarınız silinməyəcək. Ancaq vaxtınız keçməyə davam edəcək. Belə olduqda kamera və ekran paylaşımını yenidən aktiv etməyi unutmayın.
16. STEM Olimpiadasının imtahan portalı xaricində kompüterdə açılan hər hansı bir səhifə, pəncərə və ya fayla görə imtahan nəticəniz ləğv oluna bilər. İmtahan portalını tərk etdikdə ekranda xəbərdarlıq mesajı görünəcək. Hər xəbərdarlığa görə ümumi balınızdan 0.5 bal çıxılacaq.
17. Şagird heç kəsdən kömək istəmədən sualları özü həll etməlidir. Şagirdin hər hansı bir şəxsdən, kitabdan vəya elektronik cihazdan kömək əldə etməsi qadağandır.
18. 60 dəqiqə tamam olduqda seçdiyiniz bütün cavablar yadda saxlanacaq və imtahan avtomatik olaraq bitəcək.
19. Texniki dəstəyə ehtiyac olduqda, STEM Olimpiadasının saytındakı **HELP DESK** formu doldurulmalıdır.
20. İmtahan başa çatdıqdan sonra kamera tətbiqini bağlaya bilərsiniz.
21. İmtahan ekranından sualların kopyalanması, şəklinin çəkilməsi, çoxaldılması, paylaşılması vəya arxivlənməsi kəsinliklə qadağandır. Bununla bağlı qayda pozuntuları aşkar edildikdə məsul şəxslərin imtahanları ləğv ediləcək.
22. Yaşana biləcək hər hansı bir texniki problemdə, şagirdin STEM Olimpiadası serverlərində qeydiyyatlı olan loqlarına baxılır və imtahana başlayıb başlamadığı, imtahan ekranı açılmış isə neçə suala baxıldığı, imtahan ekranının açıq qaldığı vaxt və edilən bütün işlər nəzərə alınaraq qərar verilir.
23. İmtahan nəticələri 10 gün ərzində elan olunacaq. İştirakçılar öz hesabat və sertifikatlarını STEM şagird panellərindən endirə biləcəklər.
24. STEM Olimpiadasında istifadə olunan sualların yayım və istifadə haqqı yalnız STEM Olimpiadasına aiddir. Bu sualların hərhansı bir şəkildə yayımlanması, surətinin çıxarılması və ya istifadəsi qadağandır.

Bütün iştirakçılara uğurlar arzulayırıq!